**UOT 78**
**https://doi.org/10.59849/2218-4783.2025.2.198**

**FƏRMAN XƏLİLOV**

# HÜSEYN RAZİNİN MUSİQİ DÜNYASI

*Tanınmış Azərbaycan şairi Hüseyn Razinin (1924-1998) lirikası mövzu baxımından çox zəngindir. Musiqiyə həsr olunan şeirləri onun lirikasının tərkib hissələrindən biridir. Şairin musiqiyə aid fikir və düşüncələri həm ayrı-ayrı şeirlərində, həm də əsərlərinə səpələnən misra, beyt və bəndlərdə öz əksini tapmışdır.*

*Məqalədə şairin musiqiyə münasibəti, milli musiqinin müxtəlif istiqamətləri, həmçinin Avropa musiqisinin mahiyyəti və rəngarəngliyi haqqındakı düşüncələri konkret nümunələr əsasında araşdırılır.*

*Müəllif belə qənaətə gəlir ki, H.Razinin musiqiyə aid fikir və mülahizələri onun lirikasına xüsusi çalar verməklə yanaşı, musiqişünasların istinad edəcəyi mənbə kimi də müəyyən əhəmiyyətə malikdir.*

**Açar sözlər:** *Hüseyn Razi, milli musiqi, muğamat, aşıq musiqisi, Avropa musiqisi, bəstəkar və müğənnilər.*

**Giriş.** Şair-dramaturq Hüseyn Razinin yaradıcılığında musiqi və onun insana bəxş etdiyi ruhi-mənəvi qida həssas şair qəlbi ilə çox böyük məharətlə ifadə olunmuşdur. Şairin uşaqlıq və yeniyetməliyi axarlı-baxarlı, bağlı-bağatlı, silsilə dağlar əhatəsində yerləşən Dəstə kəndində keçmişdir. Bu vaxtlar və sonralar "çayların zümzüməsi", "quşların nəğmələri", "çələngli çiçəklər", "sürülərin otladığı dağ yamacları", "Ələngəzin zirvəsindən eşidilən zəngulələr", "yağış damlalarından süzülən musiqi" sədaları, "sellərin avazı", "göydə yanan buludlar" onun zövqünü oxşamış, musiqi duyumunun ilk rüşeymləri olmuşdur:

Şairin yalnız musiqiyə həsr etdiyi 7 şeiri vardır: "Musiqi şəlaləsi", "Onun simfoniyası", "Kamança", "Şahnaz", "Mənim muğamlarım", "Nəğmələr", "Kəsmə şikəstə". Onun digər şeirlərində də musiqiyə dair düşüncələri öz əksini tapmışdır.

**Musiqiyə münasibəti.** H.Razinin öz ülviyyəti ilə seçilən musiqi dünyasının əsas qida mənbələri şirin ana laylası və vurğunu olduğu əsrarəngiz ana təbiətdir:

İlk mahnı yarandı ilk arzulardan
İlk layla səsləndi yer küræmizə [2, s. 6].

Şairin fikrincə, eşitdiyi şirin (bəzən də hıçqırıqlı) laylaların müəllifini nişan verən **"ANA"** sözünün özü də musiqi ilə yoğurulub:

Bu sözdəki şirinlik muğamata bənzəyir,
Ən incə bir nəğmədə nəqərata bənzəyir [8, s. 17].

H.Razinin musiqi sahəsində maraq dairəsi çox geniş idi. "Amma, dostlar, Üzeyirtək əzəldən, zil kamana, tar səsinə bağlıyam", – deyən şairin musiqi dünyasında Azərbaycan milli musiqisinin əvəzedilməz yeri vardır. "Kamança" adlı şeirində şairin Azərbaycan milli musiqisinə necə qırılmaz tellərlə bağlılığı və onu çox həssaslıqla duyması böyük bir məharətlə ifadə olunur:

Duyan qəlbə od ələyir,
Teli, qolu kamançanın.
Mənə fəryad kimi gəlir
Səsi odlu kamançanın.

O can verir, o can alır,
Hıçqırığı ürək çalır.
Qəlbi dolduqca boşalır
Yaz buludu kamançanın.

Dərd əlindən aman səsi,
Yandım, alışdım deməsi

Arabir də qəhqəhəsi,
Vardır ulu kamançanın.

Gah həsrətdir, gah vüsaldır,
Hər naləsi həsb-haldır.
Hər məclisdə tar, qavaldır
Sağı, solu kamançanın.

O səsi dinləyib hərdən,
Babaları anıram mən.
Axı əsrlər üstündən
Keçir yolu kamançanın.

Şirin bəmi, xoş zili var,
Nə yanıqlı bir dili var.
Razi, yəqin nisgili var
Dəli-dolu kamançanın [7, s. 96-97].

Musiqiyə həsr etdiyi başqa bir şeirində ("Onun simfoniyası") pianoda "Azadlıq" simfoniyasını ifa edən gənc bir qız təsvir olunur. Şair simfoniyanı dinləyərkən keçirdiyi hiss və duyğuları misralara hopdurmağı bacarır:

Gülzarın çaldığı o simfoniyada,
Gah hava qaralır, gah dan sökülür,
Gah ölüm sürünür qoca dünyada,
Gah da istibdadın gözləri gülür.

Gah şimşək oynayır üfüqlər üstə,
Yarır qatılaşan qaranlıqları.
Keçir insan seli dəstəbədəstə
Ellər qarşılayır qəlbən baharı [8, s. 27].

H.Razinin elə şeirləri də var ki, bütövlükdə musiqiyə həsr olunmayıb, lakin bu şeirləri də (həmin şeirlərdə musiqiyə aid bəzi misralar vardır) onun musiqi dünyasını təzahür etdirən dəyərli nümunələr hesab etmək olar. Məsələn, "Aman ovçu, vurma məni" adlı şeirin cəmi bir misrası ("Bir mahnının əfsununda fikirdəyəm") musiqiyə aiddir. Şair bu misranı hər bəndin sonunda təkrarlayır. Nəticədə ondan əvvəlki misralarda ifadə olunan fikirlər sanki həzin bir mahnının müşayiətilə dünyanın gərdişini oxucuların gözləri önündən keçirir:

"Praqa zəngləri" adlı şeirində isə şair zəngin (saatın) səsini dinlədikcə düşüncələrə dalır, onun ahəngdar səsini ecazkar bir musiqiyə bənzədir. Bu səsləri gah kaman naləsinə, gah da ehtizaza gələn arfaya bənzədir. Haray çəkən bu zəng səsləri şairin xəyalına "dünənləri, bugünləri, sabahları" gətirir:

Ahəng ağır bir axında
    Səs ölçüsü do majurdur.
Bu zənglərin qatarına
    Böyük qüllə saatının
    Mis kəfkiri drijordur.
Bu orkestr elə bil ki,
    Qalileyin kəkisaya nifrətini,
    Kopernikin ulduzlarla söhbətini
    Bir sonata vurğusunda bəstələyir.
Qulağıma Nəsiminin

“Mənəm Allah” səsi gəlir...
Musa Cəlil son şeirini həkk eləyir
həbsxana daşlarına.
Dinləyirəm, zəng səsləri
nəğmə kimi deyir mənə
dünənləri, bugünləri, sabahları [7, s. 64].

Şeiri oxuduqca şairin musiqi aləminə necə dərindən bələdliyinin bir daha şahidi oluruq.

**Muğamat dünyası.** H.Razi Azərbaycan professional musiqisinin aparıcı janrı olan muğamlara da yaxşı bələd idi və dərin məzmunu, füsunkarlığı ilə insanı ovsunlayan muğamatı həssaslıqla duyur, dərk edir və onlardan zövq alırdı.

**Sənətşünaslıq doktoru, professor Ramiz Zöhrabov:** “Hüseyn Razi “Rast”, “Şur”, “Zabul”, “Mahur”, “Çahargah”, “Bayatı-Şiraz”, “Şüstər”, “Segah” kimi **muğam dəsgahlarının**, “Qatar”, “Rəhab”, “Bayatı-kürd”, “Şahnaz” kimi **kiçik həcmli muğamların**, “Səmayi-şəms”, “Heyratı” kimi **zərb muğamların** adlarını çəkərək onların ayrı-ayrılıqda səciyyəvi məziyyətlərindən söz açır” [9, s. 59].

Alimin işarə etdiyi həmin şeir “Musiqi şəlaləsi” adlanır və 1958-ci ildə qələmə alınıb. Şeirin ilk bəndində şair muğamatı “nəğmələr dəfinəsi” adlandırır. Sonrakı bəndlər onun bu dəfinənin dərinliklərinədək nüfuz etməyə səy göstərməsi və təkrarolunmaz çalarlarını özünəməxsus şəkildə mənalandırması aşkara çıxır:

“Rast”da bir məna var göylərdən dərin,
“Şahnaz” sədasıdır düşüncələrin.
“Şur” Xəstə Qasımın, Xəyyat Mirzənin,
Aşıq Ələsgərin zənguləsidir.

“Zabul” yada salır hicran qəmini,
“Qatar” xatırladır vüsal dəmini,
“Mahur” arzuların bir aləmini,
“Çaharigah” nəğmələr silsiləsidir.

“Bayatı İsfəhan”, “Bayatı Şiraz”,
“Rəhab”ı, “Hicaz”ı duymamaq olmaz.
“Şüstər”ə diqqətlə qulaq as bir az,
Ürək tellərinin titrəməsidir.

“Segah”ı diqqətlə dinlədikcə mən,
Duyğular karvanı keçir sinəmdən.
Gözəl “Heyratı”ya köklənib deyən,
O, Qoç Koroğlunun cəngi səsidir.

Çıxıb seyrəngaha bir al səhərdə,
Qulaq as, qulaq as “Bayatı-kürd”ə.
Dayan “Səmayi-şəms” oxunan yerdə,
Gör hansı kamanın inləməsidir [8, s. 40].

“Çatlayır köksümün altında muğamat dənizi” [4, s. 176], – deyən şairin düşüncəsinə görə:

Muğamlar yüz eşqin dastanı kimi
Könüldən-könülə umu-küsüdür.
Muğamlar arzular ümmanı kimi
Coşan ürəklərin döyüntüsüdür [4, s. 140].

H.Razinin digər şeirlərində də muğamların adları sadalanır, onların mahiyyətindən söz açılır, ecazkar ruhu, lirizmi və təsir gücü tərənnüm edilir.

**Aşıq musiqisi.** H.Razi aşıq musiqisi ilə də maraqlanmış, şeirlərində məşhur Azərbaycan aşıqlarının adlarını çəkməklə bərabər, ifalarını eşitməsə də, mənbələrin məlumatlarına əsaslanaraq xəyalən onların deyişmə məclisini oxucuların gözündə canlandırmağa səy göstərmişdir:

Yığıldı məclisə bir gün aşıqlar,
Gəldi ustad Alı, Ələsgər dədə.
Bəhsləşib, deyişib onlar o ki var,
Çalıb çağırdılar müsabiqədə.

Qurbani başladı "Bənövşə"sindən,
Səsi nalələşdi "Yanıq Kərəmin"
Ayrılıq odundan hicran səsindən
Kül oldu az qala bağrı Dilqəmin.

Ötdü Xəstə Qasım sarı sim üstə,
Abbas, Sarı Aşıq bayatı çəkdi.
Neçə gəraylıda, neçə təcnisdə
Alışıb odlanan neçə ürəkdi.

Yandı Aşıq Hüseyn zəngulələrdə,
Yayıldı ellərə Qəribin adı,
Dilsuzun, Valehin düşdüyü dərdə
Eşidən ağladı, görən ağladı [5, s. 181-182].

H.Razi əsərlərində *tar, kamança, ud, rübab, qaval, ney, tütək* kimi milli musiqi alətləri ilə bərabər, aşıqların *"hər pərdədə yüz nəğmə çalan telli sazı"*nın da adını tez-tez çəkir, onun *"əfsunlu"* səsinin sehrindən söz açır:

Mənim öz səsim var, öz avazım var,
Tarım var, zil kamanım, telli sazım var [6, s. 88].

**Etiraz notları.** H.Razi digər lirik şeirlərində, həmçinin poema və dram əsərlərində, habelə ictimai-siyasi məzmunlu publisistik məqalələrində olduğu kimi musiqidən bəhs edən şeirlərində də bir fürsəti əldən buraxmamışdır. Bu da onun senzuradan yayınmaq məqsədilə fikirlərini öz oxucularına sətiraltı mənalar və eyhamlarla çatdırmasıdır:

Sarı simdən çəkilmədi barmağımız
Muğamatın bəmi kimi [2, s. 45].
Dartılır, gərilir, kamana dönür
Danışır nisgilli, məlalı dağlar [7, s. 134]
Havalanmış mənim eşqimlə şirin zəngulələr,
Zildə fəryad qoparan nəğmələrin sazı mənəm [4 s. 176].
Gur havalı, xaric səsli bir ud kimi
Cığır salır damarlara
Bər-bəzəkli yalanlar [6, s. 118].

Şair bu misralarda yalanlardan yoğurulan sovet imperiyasının cəngində – "xalqlar həbsxanası"nda inləyən millətimizin yanıqlı nalələrinə işarə edir.

**Avropa musiqisi.** H.Razi üçün Avropa musiqisi də yad deyildi. Şairin 1967-ci ildə Bratislavada yazdığı "Motsartın heykəli önündə" şeiri və "Ulyanovsk dəftəri" poemasında rast gəldiyimiz misralar onun avropalı bəstəkarlarının yaradıcılığına bələdliyini göstərir:

Bethovenin sehrli "Ay sonatası",

Şirin “Apposionata”sı,
Havalanır pərdə-pərdə.
Əllər sədəf dillərdədir,
Xəyallarsa zirvələrdə.
Motsart, Şopen, Qlinka, Bax
Dilə gəlir varaq-varaq [4, s. 198].

**Şairin “Gündəliy”indən: “2 mart 1967. Budapeşt.** “Axşam Dövlət Milli Teatrının filialı olan Erkel adına Opera və Balet Teatrına gəlir, burada bəstəkarın “Bank” operasına baxırıq. Erkən XIX əsrdə yaşamış gözəl bəstəkar, dirijor, pedaqoq olmuşdur...

“Bank” operasının musiqisi çox oynaq, təravətli, türk musiqi ladına uyğundur... Orkestr o qədər məharətlə çalır ki, insan musiqi selinin içində əriyib öz xəyallarını belə operanın axınına tabe etdirir” [3, V cild, s. 297].

**Şairin qızı Gülzar Kazımovanın dedikləri:** Atam musiqini çox sevirdi. O təkcə Azərbaycan muğamları və bəstəkar mahnıları ilə yox, Avropa bəstəkarlarının operaları və simfonik əsərləri ilə də maraqlanırdı. Özünün bir tarı var idi. Hərdən onu sinəsinə basıb yanıqlı-yanıqlı dilləndirirdi də... Royalda da ifa etməyi öyrənmişdi. Mənim orta musiqi təhsilim olduğu üçün onunla aradabir musiqi aləmindən söhbətlərimiz olurdu. Əslində musiqi təhsili almağımda da atamın tövsiyəsi həlledici olmuşdu.

Söhbətlərimiz zamanı şahidi olurdum ki, atam musiqini həssaslıqla duyub dərk etməklə yanaşı, onun bəzi nəzəri məsələlərindən də xəbərdardır. Musiqi müəllimi kimi 30 illik fəaliyyətimdə onun bəzi tövsiyələrinin də mənə xeyli köməyi olmuşdu.

O vaxtlar musiqiyə aid elmi ədəbiyyat çox çətinliklə tapılırdı. Atam İttifaqın müxtəlif nəşriyyatlarından sifariş yolu ilə, yaxud başqa respublikalarda olarkən mağazalarından rus dilində yazılan belə kitabları əldə edə bilirdi. Onun avtoqrafla mənə hədiyyə etdiyi həmin kitablar, xüsusilə çoxcildlik “Musiqi ensiklopediyası” bu gün də şəxsi kitabxanamızda qaygı və ehtiramla saxlanılmaqdadır”.

**Bəstəkar və müğənnilərlə əməkdaşlığı.** H.Razinin “Gündəlik”lərindən məlum olur ki, o, tanınmış musiqi xadimləri ilə də ünsiyyətdə olmuş, hətta bəziləri ilə əməkdaşlıq etmişdir.

“**29 may 1966:** Opera və balet teatrının solistlərindən Rübabə Muradova, Mayis Salmanov, Arif Babayev və Hüsnü Qubadov bizim estrada çıxış edirlər. Onların konsertinə baxıb, bir qədər müğənnilərlə söhbət edirəm.

**6 iyun 1966:** Səhər SSRİ Xalq artisti Rəşid Behbudovla görüşüb xeyli söhbət edirik. O, Türkiyə, İran və Hindistan səfərləri haqqında danışır. Söhbətimiz çox səmimi olur. O, məndən sabahkı konserti üçün bir neçə söz yazmağı xahiş edir. Axşam üstü yazıram...

Teatr meydanı dolmuşdur. Beş mindən artıq tamaşaçı vardır. Konsert radio ilə bütün respublikaya translyasiya edilir. Rəşid konsertə belə başlayır:

– Sizin gözəl şairiniz Hüseyn Razi ilə birlikdə bir nəğmə yazmışıq. Onu sizə oxuyum. Bu mahnı böyük müvəffəqiyyətlə qarşılanır” [3, IV cild, s. 15].

H.Razinin musiqi aləminə dərindən bələd olmasını onun bu istiqamətdə yazdığı “Zəhmət və istedad” (bəstəkar Rəşid Məmmədov haqqında), “Böyük bəstəkar” (D.Kabalevski haqqında), “Oxuyur Hüsnü Qubadov”, “Şövkət Ələkbərovanın konserti”, “Duyğular və səslər aləmində (tarzən Rəcəb Səfərov haqqında), “Şirin arzular” (gənc ifaçılar Eldar Səfərov və Firuzə Əzimova haqqında), “Bəstəkar Şəfiqə Axundova Naxçıvanda”, “Sənətin zirvəsi” (Rəşid Behbudovun rəhbərlik etdiyi Azərbaycan Mahnı Teatrının naxçıvana qastrolu haqqında məqalələrindən və Naxçıvanda keçirilən mahnı bayramları, festivallar, özfəaliyyət kollektivlərinin müsabiqələrinə həsr etdiyi yazılardan da sezməmək mümkün deyil [1, № 513, 745, 869, 891, 949, 954, 1000].

H.Razinin heca və əruz vəznlərində yazdığı lirik şeirlərinin ahəngdarlığı və axıcılığı Azərbaycan bəstəkarlarının diqqətindən yayınmamışdır. Cahangir Cahangirov, Ələkbər Tağıyev, Ramiz

Mirişli, İbrahim Topçubaşov, Məmməd Məmmədov, Rəşid Məmmədov, Vahid Axundov və başqa tanınmış bəstəkarların şairin ”Ana”, “Ana vətən”, “Salam Bakı”, “Sirab”, “Ordubad”, “Bağışlamazdım”, “Gözlərin”, “Gülüm”, “Naxçıvan”, “Xan “Araz”, “Musiqi şəlaləsi” şeirlərinə bəstələdiyi mahnılar Əbülfət Əliyev, Əlibaba Məmmədov, Baba Mirzəyev, Flora Kərimova, Zeynəb Xanlarova, Hüsnü Qubadov, Bilal Əliyev, Brilliant Dadaşova, Azər Zeynalov kimi müğənnilər tərəfindən böyük məharətlə ifa olunmuşdur.

“Gündəlik”dən: “15 yanvar 1970. Bəstəkarlardan Cahangir Cahangirovun “Naxçıvan” kantatasına sözləri mən yazmışam. Bəstəkarlar Ramiz Mirişli, Bəxtiyar Kərimov, Nəriman Məmmədovla bir neçə mahnı üzərində işləmişəm. Tarzən Əkrəm Məmmədov keçən il mənim sözlərimə bir mahnı yazıb”.

**Nəticə.** H.Razinin musiqiyə aid yazdığı xüsusi şerləri və ayrı-ayrı əsərlərinə səpələnən misra və beytləri bilikdə onun musiqi dünyasının ümumi mənzərəsi haqqında tam təsəvvür yaradır. Şairin musiqiyə münasibəti, onun ecazkarlığı, ruhu təzələyən təsir gücü haqqında fikir və mülahizələri özünəməxsusluğu və orijinallığı ilə seçilir. Bu fikir və mülahizələrin onun lirikasını zənginləşdirmək baxımından böyük əhəmiyyəti vardır.

İstər milli musiqinin müxtəlif istiqamətləri, istərsə də Avropa musiqisinin mahiyyəti və rəngarəngliyi H.Razinin qələmində məharətlə dəyərləndirilmişdir. Bu dəyərləndirmə musiqişünasların istinad edəcəyi mənbə kimi də müəyyən əhəmiyyətə malikdir.

## ƏDƏBİYYAT

1. Hüseyn Razi. Biblioqrafiya / Tərtib edən F.Xəlilov. Naxçıvan: Əcəmi, 2015, 304 s.
2. Razi H. Gözün aydın (şeirlər). Bakı: Azərbaycan, 1996, 232 s.
3. Razi H. Gündəliklər: 28 cilddə. 1964-1993. Şairin qızı Firuzə Rzayeva tərəfindən qorunan H.Razinin şəxsi arxivi.
4. Razi H. Həmişəbahar (şeirlər və poemalar). Bakı: Azərnəşr, 1974, 240 s.
5. Razi H. Ömür keçdi. Bakı: Elm və təhsil, 2011, 304 s.
6. Razi H. Sahil həsrəti (şeirlər). Bakı: Yazıçı, 1985, 296 s.
7. Razi H. Səsləşən dağlar (şeirlər). Bakı: Azərnəşr, 1970, 148 s.
8. Razi.H. Ana məhəbbəti (şeirlər). Bakı: Azərnəşr, 1960, 60 s.
9. Zöhrabov R. Muğam. Bakı: Azərnəşr, 1991, 219 s.

***AMEA Naxçıvan Bölməsi***
***E:mail: femanxelilov1952@gmail.com***

**Farman Khalilov**

## HUSEYN RAZI'S MUSICAL WORLD

The lyrics of the famous Azerbaijani poet Hussein Razi (1924-1998) are rich in subject. His poems dedicated to music are one of the components of his lyrics. The poet's ideas and thoughts about music were reflected both in his individual poems and in the hemistiches, couplets, and paragraphs of his works.

The article examines the poet's attitude to music, various directions of national music, as well as his thoughts on the essence and diversity of European music based on specific examples.

The author concludes that H.Razi's views and thoughts on music not only add a special touch to the lyrics but also have a certain importance as a source of reference for musicologists.

**Keywords:** *Huseyn Razi, national music, mughamat, ashug music, European music, composers and singers.*

**Фарман Халилов**

## МИР МУЗЫКИ ГУСЕЙНА РАЗИ

Лирика известного азербайджанского поэта Гусейна Рази (1924-1998) очень богата по тематике. Его стихи, посвященные музыке, являются одной из составляющих частей его лирики. Идеи и размышления поэта о музыке отражены как в его отдельных стихах, так и в строфах, бейтах и абзацах, разбросанных по его произведениям.

В статье рассматривается отношение поэта к музыке, различным направлениям национальной музыки, а также его размышления о сущности и многообразии европейской музыки на конкретных примерах.

Автор делает вывод, что идеи и соображения Г.Рази в отношении музыки не только придают его лирике особый оттенок, но и имеют определенное значение как источник, на который будут ссылаться музыковеды.

**Ключевые слова:** *Гусейн Рази, национальная музыка, мугамат, ашугская музыка, европейская музыка, композиторы и певцы.*

*(AMEA-nın müxbir üzvü Əbülfaz Quliyev tərəfindən təqdim edilmişdir)*

**Daxilolma tarixi: İlkin variant: 10.07.2025**
**Son variant: 02.09.2025**